## *Birinci vitse-prezident Mehriban ƏLİYEVA:*

# "Türkiyə xalqının kədəri bizim kədərimizdir. Bizim qardaşlığımız əbədi və sarsılmazdır!"



**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "Instagram" hesabında Türkiyənin İzmir şəhərində baş verən zəlzələ ilə bağlı paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:**

"Türkiyənin Egey bölgəsində baş vermiş güclü zəlzələ nəticəsində insan tələfatı və dağıntılar barədə xəbərləri kədər və təəssüf hissi ilə qarşıladım. Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralıların tezliklə şəfa tapmasını diləyirəm. Türkiyə xalqının kədəri bizim kədərimizdir. Bizim qardaşlığımız əbədi və sarsılmazdır! Uca Tanrı xalqlarımızı bütün bəlalardan və bədbəxtliklərdən qorusun!"

Azərbaycan.- 2020.-31 oktyabr.- S.1.